**"Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

"Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq olunmasını təmin etmək məqsədi ilə qərara alıram:

1. Müəyyən edilsin ki:

"Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında" Azərbaycan Respublikası Qanununun 45.3-cü və 45.5-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

həmin Qanunun 12.1-ci, 15.2-ci, 24.1.9-cu. 55.2 və 56.6-cı maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın, 14.2-ci, 15.3-cü və 67.1-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini rayon, şəhər icra hakimiyyəti orqanları həyata keçirirlər;

həmin Qanunun 12.2-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın və 27.2-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyət orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həyata keçirir;

həmin Qanunun 15.12-ci maddəsində nəzərdə tutulmuş "vətəndaşların yaşayış yeri və ya olduğu yer üzrə qeydiyyatını həyata keçirən orqanları"nın, 16.2-ci maddəsində nəzərdə tutulmuş "vətəndaşın yaşayış yeri və ya olduğu yer üzrə qeydiyyat uçotunu aparan orqanı"nın və 16.3-cü maddəsində nəzərdə tutulmuş "Azərbaycan Respublikası vətəndaşlarının olduğu və ya yaşayış yeri üzrə qeydiyyat uçotunu aparan orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin yerli qurumları həyata keçirirlər;

həmin Qanunun 29.1-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;

həmin Qanunun 52.2-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Mətbuat və İnformasiya Nazirliyi və Azərbaycan Respublikasının Rabitə Nazirliyi həyata keçirir;

həmin Qanunun 63.6-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Əmlakı Nazirliyi həyata keçirir;

həmin Qanunun 53.18-ci, 54.14-cü, 60.3-cü, 60.7-ci, 63.4-cü, 64.2-ci. 64.4-cü və 64.11-ci maddələrində nəzərdə tutulmuş "müvafiq bank"ın səlahiyyətlərini Birləşmiş Universal Səhmdar Bankı həyata keçirir;

həmin Qanunun 55.7-ci və 70.12-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir;

həmin Qanunun 57.7-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının Radio Tezliklər üzrə Dövlət Komissiyası həyata keçirir;

həmin Qanunun 58.3-cü maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həyata keçirir.

2. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına təklif edilsin:

Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin hazırlanması və keçirilməsi ilə əlaqədar qanunla onun səlahiyyətlərinə aid edilən məsələlərin yerinə yetirilməsi üçün zəruri olan tələbləri həyata keçirsin;

Azərbaycan Respublikasının Milli Məclisinə seçkiləri müşahidə etmək üçün beynəlxalq (xarici) müşahidəçiləri dəvət etsin və onların səlahiyyətlərinin həyata keçirilməsi üçün zəruri olan köməklik göstərsin;

Azərbaycan Respublikasında 2000-ci il noyabrın 5-nə keçirilməsi təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı olaraq Azərbaycan Respublikasının dövlət büdcəsindən zəruri olan həcmdə maliyyə vəsaitinin ayrılması üçün təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin tapşırılsın:

Azərbaycan Respublikasında 2000-ci il noyabrın 5-nə keçirilməsi təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı olaraq Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasının təklifi nəzərə alınmaqla Azərbaycan Respublikasının dövlət büdcəsindən zəruri olan həcmdə maliyyə vəsaitinin ayrılmasını təmin etsin;

Azərbaycan Respublikasının Milli Məclisinə seçkiləri müşahidə etmək üçün dəvət olunmuş beynəlxalq (xarici) müşahidəçilərin səlahiyyətlərinin həyata keçirilməsi üçün zəruri olan köməklik göstərsin;

Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin hazırlanması və keçirilməsi ilə əlaqədar və Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasının tələbatını nəzərə alınmaqla nəqliyyat və rabitə müəssisələri və təşkilatları tərəfindən xidmət göstərilməsi müəssisələrinin həllini təmin etsin;

həmin Qanundan irəli gələn məsələləri öz səlahiyyəti hüdudlarında həll etsin.

4. Azərbaycan Respublikasının Milli Məclisinə təklif edilsin ki, xarici ölkələrin parlamentlərinin və beynəlxalq parlamentlərarası təşkilatların nümayəndələrini Azərbaycan Respublikasının Milli Məclisinə seçkiləri müşahidə etmək üçün dəvət etsin.

5. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın:

Azərbaycan Respublikasından kənarda yaşayan Azərbaycan Respublikasının vətəndaşlarının seçkilərdə iştirakının mütəşəkkil keçirilməsi üçün Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası ilə birlikdə zəruri olan tədbirləri həyata keçirsin;

Azərbaycan Respublikasının Milli Məclisinə seçkiləri müşahidə etmək üçün xarici dövlətlərin hökumətlərinə və beynəlxalq təşkilatlara müraciət edib, onların nümayəndələrini dəvət etsin;

bu Fərman barədə xarici dövlətlərə və beynəlxalq təşkilatlara məlumat versin.

6. Azərbaycan Respublikasının Milli Bankına tövsiyə edilsin ki, "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn məsələləri öz səlahiyyətləri daxilində həll etsin.

7. Rayon (şəhər) icra hakimiyyəti orqanlarına tapşırılsın:

"Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında" Azərbaycan Respublikası Qanununun 12.1-ci, 14.2-ci, 15.2-ci, 15.3-cü, 24.1.9.-cü, 55.2-ci, 56.6-ci və 67.1-ci maddələrində nəzərdə tutulmuş tədbirləri həyata keçirsin.

8. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, dövlət konsernlərinə və şirkətlərinə, dövlət müəssisə, idarə və təşkilatlarına tapşırılsın ki, Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər üzrə seçki komissiyalarına onların Qanunla müəyyən edilmiş səlahiyyətlərinin həyata keçirilməsində köməklik etsinlər.

9. Bələdiyyələrə tövsiyə edilsin ki, "Azərbaycan Respublikasının milli Məclisinə seçkilər haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn məsələləri öz səlahiyyətləri daxilində həll etsin.

10. Kütləvi informasiya vasitələrinin rəhbərlərinə tövsiyə edilsin ki, Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin hazırlanması və keçirilməsi ilə əlaqədar müntəzəm olaraq məlumat və materialların verilməsini təmin etsinlər.

Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti Heydər ƏLİYEV**

**Bakı şəhəri, 6 iyul 2000-ci il**

**№ 360**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 2880-2882.**